**Hörmətli Vahid müəllim!**

Sizi, rəhbərlik etdiyiniz kollektivi və bütün auditor ictimaiyyətini Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müstəqil Azərbaycan dövlətində audit institutunun formalaşması və inkişafı Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik fəlsəfəsinə əsaslanır. Şəffaflıq, hesabatlılıq və məsuliyyət prinsiplərinə söykənən strategiya nəticəsində ölkəmizdə müasir audit sisteminin institusional əsasları yaradılmış, audit iqtisadi idarəetmənin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Bu strateji xətt Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən dərin iqtisadi islahatlar audit institutunun iqtisadi sistemdə rolunu daha da gücləndirmişdir.

Auditorlar Palatasının bu illər ərzində fəaliyyəti Azərbaycan iqtisadiyyatında bazar münasibətlərinin təşəkkülü, maliyyə intizamının möhkəmləndirilməsi və etimad mühitinin formalaşdırılması ilə sıx bağlıdır.

Audit mexanizmləri iqtisadi risklərin qiymətləndirilməsində, idarəetmə qərarlarının əsaslandırılmasında, dövlət və özəl sektorda məsuliyyətli yanaşmanın təşviqində mühüm rol oynayır.

Hazırki dövrdə rəqəmsal transformasiya və beynəlxalq inteqrasiya prosesləri audit institutunun əhəmiyyətini daha da artırır. İnanırıq ki, auditor ictimaiyyəti bundan sonra da peşəkarlıq, obyektivlik və müasir yanaşmalarla ölkəmizdə şəffaflığın və maliyyə intizamının daha da gücləndirilməsinə, korporativ idarəetmənin inkişafına mühüm töhfələr verəcəkdir.

**Mikayıl Cabbarov**

**Azərbaycan Respublikasının iqtisadiyyat naziri**